2017-ci ilin yanvar-aprel aylarında muxtar respublikada fəaliyyət göstərən müəssisə və təşkilatlar, fiziki şəxslər tərəfindən aparılan ticarət əməliyyatları nəticəsində 102673,8 min ABŞ dolları həcmində xarici ticarət dövriyyəsi yaranmışdır. Xarici ticarət dövriyyəsinin 97921,4 min ABŞ dollarını yaxud 95,4 faizini ixrac, 4752,4 min ABŞ dollarını yaxud 4,6 faizini idxal təşkil etmişdir.

İdxalın həcmi son bir il ərzində 59,6 faiz azalmış, ixracın həcmi isə 1,2 faiz artmışdır. Ümumilikdə bu dövr ərzində 93169 min Amerika Birləşmiş Ştatları dolları həcmində  müsbət saldo yaranmışdır.